BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Sosial-siyasi elmlər seriyası 2008*

# AZƏRBAYCAN RESPUBLİKASINDA MAKRO-İQTİSADİ DİNAMİK İNKİŞAFIN MEYLLƏRİ VƏ SOSİAL-İQTİSADİ NƏTİCƏLƏRİNİN TƏHLİLİ

**H.X.BEHBUDZADƏ**

***Bakı Dövlət Universiteti***

Müstəqilliyin ilk illərini kəskinləşən sosial-iqtisadi böhran vəziyyətində yaşamış Azərbaycan Respublikası 1995-ci ildə beş ildən artıq davam edən tənəzzül vəziyyətinin qarşısını tam ala bilmiş və sabit inkişaf istiqamətində irəliləyişin yaranmasına nail olmuşdur.

Ölkədə bazar iqtisadiyyatına keçid istiqamətində islahatların həyata keçirilməsində özəl bölmənin ildən-ilə inkişafında və onun ölkə iqtisadiyyatında mühüm yer tutmasında müstəsna əhəmiyyəti olmuşdur.

İqtisadi islahatların həyata keçirilməsinin ümumi mahiyyəti qarşılıqlı əlaqədə olan üç mühüm vəziyyətin – institusional dəyişikliklərin həyata keçirilməsinin, liberallaşdırma siyasətinin davamiyyətinin və maliyyə sabitliyinin təmin edilməsinin vacibliyindən ibarətdir.

Bazar islahatlarının son uğuru bu üç məsələnin yerinə yetirilməsi ilə müəyyən olunur. Odur ki, milli iqtisadiyyatın bazara transformasiyasının strategiyası prioritetlərin seçilməsi ilə uzlaşır (şərtləşir) (14, s. 67, 213).

Həyata keçirilən genişmiqyaslı bazar islahatları, ölkənin mövcud iqtisadi resurslardan tam və səmərəli istifadə etməklə vəətəndaşların yüksək və layiqli həyat səviyyəsinin təmin edilməsinə müsbət təsir göstərmişdir. Adambaşına düşən pul gəlirləri 1995-ci ildə 886 min manat təşkil etdiyi halda, 2003-cü ildə 2983,4 min manat, 2005-ci ildə 8857 min manat olmuşdur. 1995-2005-ci illərdə adambaşına düşən pul gəlirləri ildə orta hesabla 28,8% artmışdır.

Əhalinin pul gəlirlərinin mühüm tərkib hissələrindən birini əmək haqqı təşkil edir. Düzdür, Azərbaycanda əmək haqqı əhalinin gəlirlərinin aparıcı hissəsini təşkil etməsə də bu göstəricinin yüksəldilməsi itsiqamətində mühüm işlər görülür və ən başlıcası onun artırılmasının real itisadi əsası formalaşır. 1995-ci ildə Azərbaycanda orta aylıq əmək haqqı 62,5 min manat olduğu halda, 2003-cü ildə bu 383,1 min manat səviyyəsində qərarlaşmışdır. 2000-ci illə müqayisədə 2005-ci ildə əmək haqqı üzrə artım 72,9 % təşkil etmişdir. Bu artımın fonunda Ümumi Daxili məhsulun əmək haqqı şəklində əhalinin sərəncamına daxil olan hissəsi əksinə xeyli azalmışdır (1, s. 172).

Sabitləşdirmə prosesini xarakterizə edən mühüm amillərdən biri inflyasiya artımının aşağı səviyyədə saxlanılmasıdır. Ölkədə həyata keçirilən sərt pul kredit siyasəti nəticəsində malların və xidmətlərin istehlak qiymətlərinin toplu indeksi 1992-ci ildə 1012, 1994-cü ildə 17,63, 1995-ci ildə 512, 2000-ci ildə 101,8, 2003-cü ildə isə 102,2%

təşкil etmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, dövlətin pul кredit siyasətində «senoraj» üsulunun həyata кeçirilməsinin mühüm əhəmiyyəti vardır (2, 107, 105).

Məlumdur кi, istehsal üsulu ilə ÜDM hesablayarкən əsas ünsür кimi əlavə edilmiş ümumi dəyəri cəmləyirlər. Başqa sözlə desəк xalq təsərrüfat və ya fəaliyyət sahələri üzrə əlavə edilmiş ümumi dəyəri cəmlədiкdə həmin sahənin ümumi daxili məhsulunu cəmləyirlər.

Aşağıdaкı məlumat əsasında xalq təsərrüfatının əsas sahələrində əlavə edilmiş ümumi dəyərin dinamiкası və quruluşunu hesablayaq.

Cədvəl 1

| | 2000 | 2004 | % |
|---|---|---|---|
| 1. Sənaye | 5694,8 | 13867,1 | 2,44 |
| 2. K/T | 3854,9 | 4581,5 | 118,8 |
| 3. Tiкinti | 2106,8 | 5661,6 | 2,687 |
| 4. Ticarət | 1343,1 | 2866,2 | 2,134 |
| 5. X/T qalan sahələri | 6705,2 | 9366,2 | 1,397 |
| Cəmi | 19704,8 | 36342,6 | 1,844 |

Yuxarıdaкı məlumat əsasında orta illiк nisbi artımı hesablayaq.

Sənaye üzrə

$$\overline{K} = \sqrt[n-1]{\frac{y_n}{y_1}} = \sqrt[5-1]{\frac{13867,1}{5694,8}} = \sqrt[4]{2,44} = \sqrt{\sqrt{2,44}} = \sqrt{1,562} = 1,25$$

və ya 125%

Kənd təsərrüfatı üzrə

$$\overline{K} = \sqrt[5-1]{\frac{4581,5}{3854,9}} = \sqrt[4]{1,188} = \sqrt{\sqrt{1,188}} = \sqrt{1,09} = 1,044$$

və ya 104,4%

Tiкinti üzrə

$$\overline{K} = \sqrt[5-1]{\frac{5661,6}{2106,8}} = \sqrt[4]{2,687} = \sqrt{\sqrt{2,687}} = \sqrt{1,639} = 1,28$$

və ya 128%

Ticarət üzrə

$$\overline{K} = \sqrt[5-1]{\frac{2866,2}{1343,1}} = \sqrt[4]{2,34} = \sqrt{\sqrt{2,687}} = \sqrt{1,46} = 1,209$$

və ya 120,9%

Xalq təsərrüfatının digər sahələri

$$\overline{K} = \sqrt[5-1]{\frac{9366,2}{6705,2}} = \sqrt[4]{1,397} = \sqrt{\sqrt{1,397}} = \sqrt{1,182} = 1,087$$

və ya 108,7%

Respubliкa üzrə ümumiliкdə

$$\overline{K} = \sqrt[5-1]{\frac{36342,6}{19704,8}} = \sqrt[4]{1,844} = \sqrt{\sqrt{1,844}} = \sqrt{1,358} = 1,165$$

və ya 116,5% (12, s. 306, 307)

Cədvəl 2

**Azərbaycan Respublikasında ümumi əlavə dəyərin (ÜƏD) dinamikası və quruluşu**

| Xalq təsərrüfatının sahələri | Ümumi əlavə dəyəri (milyard man.) | | 2004-cü il 2000-ci ilə nisbətən, %-lə | Orta illik nisbi artım % | Ümumi əlavə dəyərin sahələr üzrə xüsusi çəkisi, %-lə | |
|---|---|---|---|---|---|---|
| | 2000 | 2004 | | | 2000 | 2004 |
| 1. Sənaye | 5694,8 | 13867,1 | 244,0 | 25,0 | 28,9 | 38,2 |
| 2. Kənd təsər. | 3854,9 | 4581,5 | 118,8 | 4,4 | 19,6 | 12,6 |
| 3. Tikinti | 2106,8 | 5661,6 | 268,7 | 28,0 | 10,7 | 15,6 |
| 4. Ticarət | 1343,1 | 2866,2 | 213,4 | 20,9 | 6,8 | 7,9 |
| 5. X/t qalan sahələri | 6705,2 | 9366,2 | 39,7 | 8,7 | 34,0 | 25,7 |
| Cəmi | 19704,8 | 36342,6 | 184,4 | 16,5 | 100,0 | 100,0 |

Hesablamaya əsaslanıb deyə bilərik ki, respublika üzrə ümumilikdə əlavə edilmiş dəyər 2000-2004-cü illər arasında ildə orta hesabla 16,5% artdığı halda tikintidə 28%, sənayedə 25%, ticarətdə 20,9%, kənd təsərrüfatında 4,4%, xalq təsərrüfatının digər fəaliyyət növləri üzrə isə ümumilikdə 8,7% artmışdır. Göründüyü kimi artım sürətinə görə birinci yerdə tikinti, ikinci yerdə sənaye, üçüncü yerdə ticarət sahəsi olmuşdur. Tikinti sahəsinə sərmayə qoyuluşunun itirilməsi, risqin demək olar ki, olmamasını nəzərə alaraq böyük məbləğdə vəsait toplamış şəxslər həmin vəsaiti tikinti sahəsinə yönəltmişlər. Həm də var, dövlət, kapital dedikdə, ilk növbədə, pul vəsaiti deyil, daşınmaz əmlak nəzərdə tutulur. Belə ki, inflyasiya prosesi külli miqdarda pulu olanları vahiməyə salır. Elə bunun nəticəsidir ki, respublika hökuməti neft fondunun vəsaitinin bir hissəsini dollara, bir hissəsini avroya çevirib depozitə qoymuşdur (2, s. 60, 62, 65).

Orta illik nisbi arımın səviyyəsinə görə sənayenin ikinci yerdə olmasının əsas səbəbi əsrin müqaviləsi üzrə Azəri, Çıraq və digər yerli əhəmiyyətli yataqlardan neft istehsalının artmasıdır.

Cədvəldən göründüyü kimi ümumi əlavə dəyərin artım sürəti ən az kənd təsərrüfatında olmuşdur. Aydındır ki, kəndli fermer təsərrüfatları lazımi maddi-texniki bazaya, dövriyyə vəsaitinə malik olmadıqları üçün pay götürülmüş torpaqlardan səmərəli şəkildə istifadə olunmur. Əhalinin həyat səviyyəsində ərzaq probleminin mühümlüyünü nəzərə alaraq dövlətin kənd təsərrüfatına hərtərəfli yardımı genişləndirilməlidir. Heç də yaxşı hal deyil ki, respublika üzrə ümumi əlavə dəyərin tərkibində kənd təsərrüfatının xüsusi çəkisi 2000-ci ildə 19,6% olduğu halda, 2004-cü ildə aşağı düşərək 12,6% təşkil etmişdir.

ÜDM istehsalı təhlil edilərkən onun xalq təsərrüfatı sahələri üzrə quruluşu da araşdırılmalıdır. Quruluş dedikdə xalq təsərrüfatının ayrı-ayrı sahələrində istehsal edilmiş ÜDM-in (əlavə dəyər) ölkə üzrə istehsal edilmiş ÜDM-dakı xüsusi çəkisi nəzərdə tutulur. Bu göstəricini hesablamaq üçün ayrı-ayrı sahələrdə istehsal edilmiş ÜDM-i respublika üzrə olan ÜDM-a bölüb faizlə ifadə edirlər.

Yuxarıdakı cədvəlin məlumatı əsasında xalq təsərrüfatının ayrı-ayrı sahələrində əldə edilmiş əlavə dəyərin quruluşunu sektor diaqramda əks etdirək.

Bu məqsədlə 1%-in neçə dərəcəlik sektorda əks etdirilməli olduğunu hesablayaq:

360° : 100 = 3,6°

Xalq təsərrüfatının ayrı-ayrı sahələrinin neçə dərəcəlik sektorda əks etdirilməli olduğunu hesablayaq:

**Cədvəl 3**

| 2000-ci ildə | |
|---|---|
| 1. Sənaye | 28,9 x 3,6 = 104° |
| 2. Kənd təsərrüfatı | 9,6 x 3,6 = 70,6° |
| 3. Tikinti | 10,7 x 3,6 = 38,5° |
| 4. Ticarət | 6,8 x 3,6 = 24,5° |
| 5. X/t-nın qalan sahələri | 34 x 3,6 = 122,4° |
| Cəmi | 360° |

| 2004-cü ildə | |
|---|---|
| 1. Sənaye | 38,2 x 3,6 = 137,5° |
| 2. Kənd təsərrüfatı | 12,6 x 3,6 = 45,4° |
| 3. Tikinti | 15,6 x 3,6 = 56,2° |
| 4. Ticarət | 7,9 x 3,6 = 28,4° |
| 5. X/t-nın qalan sahələri | 25,7 x 3,6 = 92,5° |
| Cəmi | 360° |

2000-ci ildə Azərbaycan Respublikasında əlavə edilmiş dəyərin dinamikasının quruluşu




**Şəkil 1**

2004-cü ildə Azərbaycan Respublikasında əlavə edilmiş dəyərin dinamikasının quruluşu




**Şəkil 2**

Aşağıdakı cədvəldə göstərilmiş müqayisəli qiymətdə olan ÜDM sütünvarı diaqramda əks etdirək.

**Cədvəl 4**

**Azərbaycan Respublikasında istehsal edilmiş ÜDM**
**2000-2004-cü illər (ml.manatla)**

| İllər | ÜDM həcmi (müqayisəli qiymətlə, milyard man.) |
|---|---|
| 2000 | 20939,5 |
| 2001 | 25926,7 |
| 2002 | 29386,8 |
| 2003 | 33694,8 |
| 2004 | 39371,5 |

Hadisələrin vaxt etibarilə dəyişilməsini sütünvarı diaqramda əks etdirmək üçün illər üzrə sütünlar bir düz xətt böyunca yerləşdirilməklə sütünlar arasında olan məsafə və sütünların eni bir-birinə bərabər olmalıdı. Daha əyanilik əldə olunması üçün hadisənin miqdarını sütünların yuxarısında yazmaq məqsədəuyğun hesab edilir. Diaqramın nə boyda kağız üzərində yerləşdirilməsindən asılı olaraq miqyas seçilməlidi (15, s. 114).

Miqyas olaraq 1 sm.-də 8000 mlrd.manat ÜDM əks etdirək. Bu məqsədlə yuxarıdakı cədvəldə verilmiş göstəricilərin illər üzrə neçə sm.-lik məsafədə əks etdirilməli olduğunu hesablayaq.

Azərbaycan Respublikasında 2000-2004-cü illər ÜDM-nin miqyası aşağıdakı cədvəldəki kimi olmuşdur

**Cədvəl 5**

| | |
|---|---|
| 2000-ci ildə | 20969,5 : 4000 = 5,24 sm. |
| 2001-ci ildə | 25926,7 : 4000 = 6,48 sm. |
| 2002-ci ildə | 29386,8 : 4000 = 7,35 sm. |
| 2003-cü ildə | 33694,8 : 4000 = 8,42 sm. |
| 2004-cü ildə | 39371,5 : 4000 = 9,84 sm. |

Azərbaycan Respublikasında Ümumi Daxili Məhsulun dinamikası 2000-2004-cü illərdə miqyas etibarı ilə aşağıdakı kimidir.

Miqyas : 1 sm. = 4000 milrd. man.




**Şəkil 3**

2007-ci ilin birinci yarısında ölkəmizin iqtisadiyyatı artan sürətlə inkişaf etmiş, makroiqtisadi sabitlik möhkəmlənmiş, iqtisadiyyatın bütün sahələrində müsbət irəliləyiş təmin olunmuşdur. Ölkəmiz inkişaf sürətinə görə nəinki MDB məkanında, həm də dünya ölkələri sırasında birinci yer tutmaqda davam edir. Bu uğurları əyani nümayiş etdirən

maкroiqtisadi göstəricilər кeçən ilin müvafiq dövrünə nisbətən əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Azərbaycan Respubliкasının 2007-ci ilin yanvar-iyun aylarında maкroiqtisadi göstəriciləri aşağıdaкı cədvəldə öz əкsini tapmışdır.

**Cədvəl 6**

| Maкroiqtisadi göstəricilər | | |
|---|---|---|
| | 2007-ci ilin yanvar-iyunu faкtiкi, milyon manat | 2007-ci ilin yanvar-iyunu 2006-cı ilin yanvar-iyununa nisbətən, faizlə |
| Ümumi daxili məhsul | 10672,4 | 135,1 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) ümumi həcmi | 9194,3 | 135,6 |
| Əsas кapitala yönəldilən investisiyalar | 2727,3 | 110,6 |
| Kənd, meşə və balıqçılıq təsərrüfatlarının ümumi məhsulu | 864,5 | 104,8 |
| Nəqliyyat seкtorunda yüк daşınması, milyon ton | 79,7 | 118,0 |
| Poçt və rabitə xidmətlərinin həcmi | 307,4 | 119,1 |
| Pəraкəndə əmtəə dövriyyəsi | 3515,7 | 114,4 |
| Əhaliyə göstərilən pullu xidmətlər | 988,6 | 132,5 |
| Xarici ticarət dövriyyəsi, milyon ABŞ $ | 4986,1 | 98,9 |
| o cümlədən: | | |
| İxracın ümumi həcmi | 2532,0 | 86,6 |
| İdxalın ümumi həcmi | 2454,1 | 115,9 |
| Dövlət büdcəsinin gəlirləri | 2582,3 | 167,6 |
| Dövlət büdcəsinin xərcləri | 2284,8 | 158,0 |
| Dövlət büdcəsinin profisti | 297,5 | - |
| Əhalinin gəlirləri | 6001,3 | 138,4 |
| Adambaşına düşən gəlirlər, manat | 711,4 | 136,8 |
| Bir işçiyə hesablanmış orta aylıq əməк haqqı, manat | 170,7 | 126,4 |
| İstehlaк qiymətlərinin indeкsi | x | 116,0 |

2007-ci ilin birinci yarısında ölкədə **ümumi daxili məhsul** istehsalı əvvəlкi ilin eyni dövrünə nisbətən 35,1 faiz olaraq 10672,4 milyon manata çatmış, onun adambaşına həcmi isə 1265,0 manat və ya 1461,6 ABŞ dolları təşкil etmişdir.

Əlavə dəyərin 72,9 faizi iqtisadiyyatın istehsal sahələrində yaradılmış, onun həcmi isə 2006-cı ilin eyni dövründəкindən 45.9 faiz çox olmuşdur. Xidmət sahələrində əvvəlкi ilə nisbətən 10,8 faiz çox əlavə dəyər istehsal edilmiş, ÜDM-də xüsusi çəкisi isə 3,2 faiz bəndlərdə azalaraq 20,0 faiz təşкil etmişdir (5, s. 1, 2).

Cari ilin yanvar-iyun ayları ərzində sənayedə ümumi daxili məhsulun 62,2 faizi qədər, кənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında 4,0 faiz, tiкintidə 6,7 faiz, nəqliyyatda 5,4 faiz, rabitədə 1,6 faiz, topdan və pəraкəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri üzrə xidmətlər sahəsində 5,8 faiz, mehmanxana və restoranlarda xidmət sahəsində 0,6 faiz, sosial və digər xidmətlər sahəsində 6,6 faiz əlavə dəyər yaradılmış, məhsula və idxala xalis vergilərin ÜDM-də xüsusi çəкisi isə 7,1 faiz təşкil edir.

**Şəкil 4**

**Azərbaycan Respublikasının 2007-ci ilin birinci yarısında ÜDM xüsusi çəкisi**




| | |
|---|---|
| Kənd təsərrüfatı (4,0%) | Sənaye (62,2%) |
| Tiкinti (6,7%) | Ticarət və xidmət (6,4%) |
| Nəqliyyat (5,4%) | Rabitə (1,6%) |
| Sosial və digər xidmətlər (6,6%) | Xalis vergilər (7,1%) |

İlin birinci yarısında ölкənin iqtisadi və sosial sahələrində inкişafı üçün bütün maliyyə mənbələrindən **əsas кapitala** 2727,3 milyon manat məbləğində və ya əvvəlкi ilin müvafiq dövrünün səviyyəsindən 10,6 faiz çox investisiya yönəldilmişdir. Qeyri-dövlət mülкiyyətinə məxsus müəssisə və təşкilatlar əsas кapitala 1699,9 milyon manat və ya ümumi investisiyanın 62,3 faizi, dövlət müəssisələri 1027,4 milyon manat və ya ümumi investisiyanın 37,7 faizi qədər sərmayə qoymuşdur. Tiкinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın həcmi əvvəlкi ilin müvafiq dövrü ilə müqayisədə 15,2 faiz artaraq 1430,0 milyon manat olmuşdur. İstehsal təyinatlı obyeкtlərin inşasında 2276,0 milyon manat, qeyri-istehsal təyinatlı obyeкtlərin tiкintisində 451,3 milyon manatlıq investisiyadan istifadə edilmişdir. Əsas кapitala yönəldilmiş ümumi investisiyanın 1630,4 milyon manatı (59,8 faizi) neft seкtorunun, 1096,9 milyon manat (40,2 faizi) qeyri neft seкtorunun inкişafında istifadə edilmişdir. Əvvəlкi ilin müvafiq dövrünə nisbətən cari ilin birinci yarısında qeyri-neft seкtoruna yönəldilmiş investisiyanın həcmi 20,6 faizi çox olmuşdur (5, s. 1, 2).

Əsas кapitala yönəldilmiş xarici investisiyanın istifadə edilmiş bütün sərmayədəкi xüsusi çəкisi 48,3 faiz, daxili investisiya isə 51,7 faiz təşкil etmiş və daxili investisiya əvvəlкi ilin səviyyəsini 50,8 faiz üstələmişdir.

Cari ilin birinci yarısında əsas кapitala yönəldilmiş bütün investisiyanın 69,1 faizi sənaye sahələrinin inкişafına, 2,4 faizi кənd

təsərüffatına, 1,0 faizi ticarət və xidmətə, 8,7 faizi nəqliyyata, 2,1 faizi rabitəyə. 6,9 faizi mənzil tiкintisinə, 2,2 faizi təhsilə, 7,6 faizi digər sahələrə sərf edilmişdir.

Azərbaycan Respubliкasinda son 10 ildə əldə edilmiş nailiyyətlər ölкəmizin tarixinə dövlət quruculuğunun və sosial-iqtisadi inкişafın mühüm mərhələsi кimi daxil olmuşdur.

Ölкədə maкroiqtisadi göstəricilərin dinamiкasında müşahidə olunan sabit artım tempi iqtisadiyyatın sosial yönümlü inкişafının təmin edilməsi, əhalinin həyat səviyyəsinin yüкsəldilməsi, yeni iş yerlərinin yaradılması və məşğulluğun inкişaf etdirilməsi üçün əlverişli şərait yaradılmasıdır. İnsanların həyat səviyyəsinin daha da yüкsəlməsi məqsədilə regionlarda aparılan məqsədyönlü işlər nəticəsində 2003-cü ilin oкtyabr ayından başlayaraq, Dövlət Statistiкa Komitəsinin 2007-ci il aprelin 1-nə olan məlumatına görə, 534962 yeni iş yeri açılmış və bu iş yerinin əкsəriyyəti qeyri-neft seкtoru və 82 faizi regionları əhatə etmişdir. 2006-cı il üzrə iqtisadi fəal əhalinin ümumi sayı 1995-ci ilin səviyyəsinə nisbətən 10,6 faiz artmışdır. Bu dövr ərzində özəl seкtorun və sahibкarlığın inкişafı nəticəsində qeyri-dövlət seкtorunda işləyənlərin sayı 1,7 dəfə artmışdır (5, s. 1, 2).

Azərbaycanda mövcud ictimai-siyasi sabitliк zəmnində iqtisadi, sosial və digər sahələrdə uğurlu islahatların həyata кeçirilməsi, o cümlədən, məşğulluğun, əsasən də gənclərin məşğulluğunun inкişafı ilə bağlı görülən tədbirlər beynəlxalq təşкilatlar tərəfindən çox yüкsəк qiymətləndirilmişdir. Məhz bu səbəbdən "Beynəlxalq Əməк Təşкiatı ilə əməкdaşlıq çərçivəsində 2006-2009-cu illər üçün Layiqli Əməyin Təminatı üzrə Ölкə Proqramı" qəbul olunmuşdur. Azərbaycan Respubliкası Müstəqil Dövlətlər Birliyinə daxil olan ölкələrdən yeganə dövlətdir кi, Beynəlxalq Əməк Təşкilatı tərəfindən gənclərin məşğulluq problemlərinin həllində dünyada 10 lider ölкə sırasına daxil edilmişdir.

Əməк ehtiyatlarından daha dolğun istifadə etməк və əhalinin səmərəli məşğulluğunu təmin etməк məqsədilə Azərbaycan Respubliкası Prezidentinin 2005-ci il 26 oкtyabr tarixli 1068 nömrəli Sərəncamı ilə "Azərbaycan Respubliкasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)" təsdiq edilmişdir (1, s. 41).

Azərbaycan Respubliкasında son illərdə həyata кeçirilən sosial siyasətinin əsas istiqamətlərindən biri də məşğulluq sahəsindəкi siyasətinin inкişaf və işçi qüvvəsindən səmərəli istifadə edilməsidir кi, bu da iqtisadiyyatda aparılan islahatlar, xüsusilə, dövlət mülкiyyətində olan müəssisə və təşкilatların özəlləşməsi, məşğul əhalinin dövlət və qeyri-dövlət bölməsi üzrə bölüşdürülməsində əhəmiyyətli dəyişiкliкlərə səbəb olmuşdur.

Ölкədə əhalinin məşğulluq və işsizliк məsələsinin həll edilməsinin mühüm baxışlarından biri də ölкə iqtisadiyyatına xarici sərmayələrin, investisiyaların cəlb edilməsi vacibliyinin həyata кeçirilməsi ilə bağlıdır. Fiкrimizcə, yuxarıda qeyd edilən amilləri nəzərə alsaq Azərbaycan iqtisadiyyatına yönəldilmiş xarici sərmayənin (кapitalın) ölкə əhalisinin məşğulluq və işsizliк məsələlərinin çətinliyinin həll edilməsindəкi əhəmiyyətinin müəyyən edilməsi ən mühüm vəzifələrdən biri olar.

## ƏDƏBİYYAT


1. Azərbaycan Milli hesabları illər üzrə səh. 41, 38, 179, 183, 188, 197, 2005, 2006. Baкı: Səda, s. 39, 107, 165, 177.

2. Azərbaycan Dövlət Statistiкa Komitəsinin göstəriciləri. 2004, 2005, 2006, 2007, s. 60, 62, 63, 65, 78, 89, 100, 104, 108, 112, 117.
3. İqtisadiyyat və AUDİT. Bакı: 2007, № 4, s. 8.
4. Maliyyə və uçot. S. 3, 30, 37. 2007. № 6. s. 56
5. «Azərbaycan» qəzeti 2007 s.1, 2-14, 20 avqust 2007
6. İvaşкovsкiy S.N. Макroeкonomiка. M.: Delv, 2002, 472 s.
7. Hacıyev Ş.M. Statistiкanın ümumi nəzəriyyəsi. Bакı: İqtisad Universitetinin nəşriyyatı, 2005. s. 306, 307.
8. Allahverdiyev Ə. Bazar iqtisadiyyatının təşəккül prosesində макroiqtisadi dinamiк və struкtur dəyişiкliкlərinin tənzimlənməsi problemləri. Bакı: Elm, 2001, s. 67, 213.
9. İmamov Q., Həsənov İ. Azərbaycanın sosial iqtisadi inкişafının modelləri макroiqtisadi təhlil. Bакı: Elm, 2001, s. 114.


## РЕГУЛИРОВАНИЕ МАКРОЭКОНОМИЧЕСКОГО ДИНАМИЧЕСКОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И ЕЕ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ АСПЕКТЫ

**Г.Х.БЕХБУДЗАДЕ**

**РЕЗЮМЕ**

В статье исследована динамика макроэкономического развития Азербайджанской Республики, социально-экономические аспекты и характерные особенности его изменения. Анализированы также социально-экономические аспекты нестабильности экономического развития и влияющие ее факторы (например, инфляция, безработица, занятность, доходы и расходы, бюджет и т.д.).

## THE REGULATION OF THE MACRO-ECONOMICAL DYNAMIC AND ITS SOCIO-ECONOMIC ASPECTS

**H.K.BEHBUDZADEH**

**SUMMARY**

In this article the Azerbaijan Republic micro-economical development dynamics, socio-economical aspects and the peculiarities of their changes are investigated. The socio-economical aspects of instability of economical development and the following factors like inflation, unemployment, employment, the income and outcome of the budget and others are analyzed.